

TƏHMƏZ BUDAQ
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*"Məmməd Araz" mükafatı laureatı*

## *Nələr yaşayır*

Varaqla sinəmin can dəftərini,
Oxu, misra-misra şeirlərimi.
Sən onda duyarsan dərdi-sərimi,
Mənim ürəyimdə nələr yaşayır.

Yatır ürəyimdə yaralı dağlar,
Elimdən, obamdan aralı dağlar.
Gecə də, gündüz də, qəlbim qan ağlar,
Mənim ürəyimdə nələr yaşayır.

Tapdaq altındadı Laçınla Şuşa,
Qarabağ, Kəlbəcər, Xocalı, qoşa,
Yatır ürəyimdə onlar baş-başa,
Mənim ürəyimdə nələr yaşayır.

Bu dünya dediyin böhtandı, şərdi,
Sağalmır hələ də, Təbrizin dərdi.
Yaralı qəlbimi qana döndərdi,
Mənim ürəyimdə nələr yaşayır.

## *Bənövşəni*

*(şair dostum Ramiz Qusarçaylıya)*

Sorağını aldım Quba elindən,
Zövq alırsan çiçəyindən, gülündən.
"Ovqat"da eşitdim şair dilindən,
"Qurudub göndərmə bənövşələri".

Qəlbində kükrəyir Vətən qeyrəti.
"Təzə tər" dərərik yaz bənövşəni.
Şair, mənim sözüm qətidi-qəti,
Sənə göndərərik biz bənövşəni.

Əlinə alanda əlin qurumaz,
Təbin dilə gələr dilin qurumaz.
Dərib göndərərik hər gələndə yaz,
Sən də sinən üstə düz bənövşəni.

Dostdan əmanətdir "təzə-tər" saxla,
Bənövşə qız saxla,igid ər saxla.
Şair ürəyində dosta yer saxla,
Bəzəsin dediyin söz bənövşəni.

## *Halal edər*

Coşdu yenə söz ümmanım,
Vətən mənim xanimanım,
Uğrunda tökülsə qanım,
Halal edər Vətən məni.

Gözündən vursam yağını,
Versəm ona göz dağını,
Ulu tutsam bayrağını,
Halal edər Vətən məni.

Çəmənindən çiçək dərsəm,
Dərib sinəm üstə sərsəm,
Ürəyimi qurban versəm,
Halal edər Vətən məni.

Varlığımdan gəlir bu səs,
Odlu haray, odlu nəfəs.
Elə bir də qursaq qəfəs,
Halal edər Vətən məni,

Ayrı düşsəm, gözüm dolsa,
Şeirim ona laiq olsa,
Bircə misram yadda qalsa,
Halal edər Vətən məni.

## Dağların

Bahar çağı qonaq oldum dağlara
Açılıb çiçəyi, gülü dağların.
Baxdım, heyran oldum zirvədə qara,
Buluda çatırdı əli dağların.

Gördüm şeh düşübdü güllərin üstə,
İlhamım coşurdu, qulağım səsdə,
Gəldi səhər mehi, əsdi ahəstə.
Sandım ki, darandı teli dağların.

Əzəl yaranışdan uludur,ulu,
Enişdi, yoxuşdu, dağların yolu,
Döysə də qar-yağış, döysə də dolu,
Əyilməz qaməti, beli dağların.

Hava qaralanda, yağış yağanda,
İldırım şığıyıb göydə çaxanda,
Dərələrdən sellər, sular axanda,
Bağlanar cığırı, yolu dağların.

Çoban tütək çalar dərə uzunu,
Haraylar: - ay uşaq, qaytar quzunu!
Könlüm yaman tutub çoban qızını,
Budaq Təhməz olar qulu dağların.

## Oxunmur

Bizim bu şəhərdə kitab oxunmur,
Dostlar, siz gülməyin dediyim sözə.
Bizim bu şəhərdə kitab oxunmur,
Bu sözü deməklə girmirəm gözə,

Kitab satanı çox, oxuyanı az,
Kitablar yazdırır hər ağlı dayaz.
"Oxuyandan Molla Pənah da olmaz!"
Bizim bu şəhərdə kitab oxunmur.

Tutub əlimizdən kitablar darda,
Nələr öyrənmədik biz kitablarda.
Kitablar qalıbdı mağazalarda,
Bizim bu şəhərdə kitab oxunmur.

Kitab bu dünyanın söz xəzinəsi,
Tanrının sözüdür hər bir kəlməsi,
Nizami, Füzuli, Nəsimi səsi,
Bizim bu şəhərdə kitab oxunmur.

İnternet doğuldu yeni eradan,
Sağ olsun bu kəşfi tapıb yaradan,
Kitab çıxa bilməz bu gün aradan,
Bizim bu şəhərdə kitab oxunmur.

Mənən zənginləşər kitab oxuyan,
Kamil ola bilməz kitabsız insan,
Gəlin ayrılmayaq biz kitablardan,
Bizim bu şəhərdə kitab oxunsun.

## Geriyə baxma, qoca

Keçən günlər ötdü getdi,
Gördüklərin gözdən itdi,
Qocalmısan, ömür bitdi.
Gəl, geriyə baxma, qoca.

Qulağında toyun səsi,
Tükəndi sevgi nəğməsi.
Yada düşər toy gecəsi,
Gəl, geriyə baxma, qoca.

Sevdiyin qız qarı oldu,
Çox kövrəlmə, gözün doldu.
Ölüm haqqa gedən yoldu,
Gəl, geriyə baxma, qoca.





Gün keçirdin yaxşı, yaman,
Daha yoxdu candan yanan.
Çox sevərdi səni canan,
Gəl, geriyə baxma, qoca,

Dünyanın yoxdu vəfası,
Toylarından çoxdu yası.
Harda qaldı bəy havası,
Gəl, geriyə baxma, qoca,
Gəl, geriyə baxma, qoca.

## Sabahın xeyir

*(şair dostum Ramiz Qusarçaylıya)*

Ürəkdə dərdimi oyatdın yenə.
Min alqış deyirəm qardaşım sənə.
Baxan yoxdu indi şair deyənə,
Ramiz Qusarçaylı, sabahın xeyir...

Yaman boş qalıbdı şeir meydanı,
Baxanda qaralır adamın qanı.
Fəxri adlar alan şairlər hanı?
Ramiz Qusarçaylı, sabahın xeyir...

Ekrandan düşməyir "qılıq" şairlər,
Cızma-qara yazan balıq şairlər.
Acgödən şairlər, tuluq şairlər,
Ramiz Qusarçaylı, sabahın xeyir...

Çoxları düşübdü reklam bəhsinə,
Vəzifə, kreslo, ad həvəsinə.
Qulaq asan yoxdu xalqın səsinə,
Ramiz Qusarçaylı, sabahın xeyir...

Bu ana torpaqdı can dəftərimiz,
Qarabağ, Təbrizdi dərdi-sərimiz.
Bunu niyə yazmır şairlərimiz?
Ramiz Qusarçaylı, sabahın xeyir...

Dərddən alışıram qardaş yerində,
Soyuldu dabandan bir vaxt dərim də.
Ad almadan öldü Əli Kərim də,
Ramiz Qusarçaylı, sabahın xeyir...

Gülü gözəl olmaz hər gələn yazın,
Qədri bilinmədi Məmməd Arazın.
Dərdin çəkənmədi dərdli Arazın,
Ramiz Qusarçaylı, sabahın xeyir...

Qələmdi, kağızdı sənin yarağın,
Meyvəsi bol olmur hər yaşıl bağın.
Qeyrətlə vəsf etdin Vətən bayrağın,
Ramiz Qusarçaylı, sabahın xeyir...

Dediyin hər kəlam Rəbbdən ayədi,
Çox təriflər vardı, inan şayədi.
Bəzi şairlərə çoxu dayədi,
Ramiz Qusarçaylı, sabahın xeyir...

Sözü haqqdan gəlir Budaq Təhməzin,
Könlümə həmdəmi hər şirin sözün.
Durma, alovlandır ürəyin közün,
Ramiz Qusarçaylı, sabahın xeyir...

## Minirə xanıma

***(Professor Minirə Qarayevanın 80 illik yubileyinə həsr olunur)***

Səndəki ürəyə heyran olmuşam,
Qeyrət heykəlidi sinəndə ürək .
Misralar üstündə donub qalmışam,
Səpərəm başına sənin gül-çiçək.

Hələ görməmişdim qadın mərdini,
Sən dünya şöhrətli bir el qızısan.
Hər zaman çəkmisən Vətən dərdini,
Sən ana yurdumun görən gözüsən.

Mələk timsallısan, ey gözəl qadın,
Şöhrətin yayılıb bütün hər yana.
Hər yerdə hörmətlə çəkilir adın,
Şöhrət gətirmisən Azərbaycana.

Ən ali zirvəyə gəlib çatmısan,
Hamıya köməkdir xeyirxah əlin.
Vətən bayrağını sən ucaltmısan,
Vətəndə ucala gərək heykəlin.